UOT 94(479.24)

SƏBUHİ QULİYEV
Bakı Dövlət Universitetinin
"Azərbaycanın yeni və ən yeni tarixi" ixtisası üzrə II kurs magistrantı
quluyevsebuhi67@gmail.com

ULU ÖNDƏRİN HÜQUQİ DÖVLƏT SAHƏSİNDƏ MİSİLSİZ XİDMƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/145-148

Ulu öndər Heydər Əliyevin həm 1969-1982-ci illər ərzində Respublikaya birinci rəhbərliyi dövründə eyni zamanda 1993-cü ildən etibarən Azərbaycan Respublikasına prezident seçildikdən sonra həyata keçirdiyi tədbirlər, əsaslı islahatlar nəticəsində ölkədə qayda-qanunun tamamilə möhkəmləndirilmiş, bu barədə müxtəlif illər ərzində vacib qərarlar verilmişdir. Aparılan genişmiqyaslı işlər nəticəsində Ulu öndərin bilavasitə şəxsi diqqəti və tövsiyyələri əsasında güc strukturlarının və hüquq-mühafizə orqanlarının maddi-texniki təchizatı xeyli möhkəmləndirilmişdir.

Açar sözlər: Konstitusiya, Qanun, Bələdiyyə, Ombudsman, Ədliyyə, Məhkəmələr.

Giriş. Heydər Əliyevin istər 1969-1982-ci illərdə Respublikaya birinci rəhbərliyi dövründə, istərsə də 1993-cü ildən etibarən prezident seçildikdən sonra ölkənin ictimai həyatının müxtəlif sahələrində həyata keçirdiyi əsaslı islahatlarla yanaşı hüquqi dövlət quruculuğu sahəsində də xeyli uğurlara imza atıldı. Heydər Əliyev yalnız bir dövləti idarə ednən siyasi xadim, rəhbər deyil, o eyni zamanda milyonlarla insanı dövlətçilik ətrafında səfərbər edən bir dövlət qurucusu, müasir tariximizin memarı, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının fəlsəfəsinin banisidir. Heydər Əliyev müstəqil dövlətçilik təliminin fəlsəfəsini yaratmışdır. Bu fəlsəfənin başlıca məzmununu müstəqillik uğrunda aparılan mübarizə yolunun nəzəri ümumiləşdirilməsi, tarixi təcrübənin öyrənilməsi, əxz edilməsi və gələcək nəsillərə çatdırılması təşkil edir (11, s.25-26). Hələ XX əsrin sonlarına yaxın (1991-1992-ci illər) ölkə əhalisinin hüquqlarının tapdalandığı, hərc-mərcliyin olduğu bir vaxtda əhali öz gələcək taleyini Heydər Əliyevə etibar etdi. Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində uğurlu siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Ölkədə qanunçuluğa ciddi sürətdə əməl olunması, ictimai-siyasi fəallığın sürətli artımı istiqamətində əsaslı islahatlar keçirilmişdir. Sabitliyin yaradılması, qayda-qanunun güclənməsi üçün 1994-cü ildə Cinayətkarlıqla mübarizəyə yönələn tarixi fərman imzalamışdır (2, s.112-113).

Hələ Azərbaycan Xalq Cümhuriyyəti yarandığı vaxtdan etibarən (1918-ci il 28 may) ədliyyə sahəsinə xüsusi diqqət yetirilmiş, həmin dövrdən etibarən ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra vacib qərarlar qəbul edilmişdir. Buna baxmayaraq 1937-ci ildə çox az səlahiyyətlərə malik quruma çevrilən Ədliyyə Nazirliyi 1957-ci ildə tamamilə ləğv edilmişdir. Ədliyyə Nazirliyinin əsaslı sürətdə təsis olunması, həmin sahə üzrə geniş aparılan islahatlar planı Heydər Əliyevin Respublikaya rəhbərliyi dövrünə təsadüf edir. Bunun məntiqi nəticəsi olaraq 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq sabit şəkildə fəaliyyəti təmin edilmişdir. Ümumiyyətlə ədliyyə işi təkmilləşdirilmiş, gələcək inkişafı üzrə fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir (6, s.312).

Hələ 1978-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının üçüncü Konstitusiyasının qəbul olunması, ümumi formada müzakirəsi və təsdiq edilməsi yolunda səbrlə, təmkinlə əzəmətli işlər görülmüşdür. Məlum olduğu kimi, Azərbaycan həmin dövrdə Sovetlər Birliyinin tərkib hissəsində olmağına baxmayaraq, Konstitusiyada müstəqil dövlətçiliyin elementləri özünü qabarıq şəkildə göstərirdi. Ulu Öndər həmin işləri sonradan belə xatırlayırdı: "Bu dövrdə Azərbaycan xalqı kommunist rejimində, ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan, şübhəsiz ki, müstəqilliyini itirmiş, ancaq dövlətçiliyini tam itirməmişdi. Azərbaycan Respublikasının dövlətçiliyinin bir çox atributları qalmış, yaşamışdır... (11, s16).

Ölkənin 91 nəfər tanınmış ziyalılarının müraciətinə cavab olaraq Heydər Əliyevin 1992-ci il oktyabrın 24-də dərc edilmiş "Yeni, müstəqil Azərbaycan uğrunda" proqram xarakteri kəsb edən məktubu həm ölkənin siyasi perspektivlərinin, həm də hüquqi dövlət quruculuğunun qarşısında dayanan əsas vəzifələrin konkretləşdirilməsi baxımından son dərəcə məzmunlu bir sənəddir.

Heydər Əliyevin siyasi uzaqgörənliyinin, eyni zamanda siyasi iradəsinin məntiqi nəticəsi olaraq 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ölkənin bütün strateji sahələrinə əsaslı təsir göstərməklə yanaşı, Azərbaycanda hüquqi islahatların yeni mərhədə aparılmasına geniş imkanlar açmışdır. Eyni zamanda Milli Məclisin 2 may 1995-ci il tarixli qərarı ilə ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 34 nəfərdən ibarət tərkibi təsdiq olundu. İyunun 5- də komissiyanın ilk iclasında azərbaycanda konstitusiya quruculuğu tarixinə toxunan və o illərdə ictimai-siyasi hadisələri dərindən təhlil edən ulu öndər yeni Konstitusiyanın məramı, qaynaqları, və istinad edəcəyi hüquqi praktikalara, habelə mahiyyətinə aydınlıq gətirirdi: "Biz elə bir Konstitusiya layihəsi hazırlamalı, və nəhayət elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun... Beləliklə, 1995-ci il 12 noyabrda ölkənin ilk konstitusiyasının qəbul olunması ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirməklə yanaşı, insanların hüquq və azadlıqlarının təminatını ön plana çəkmişdir. Konstitusiyada məhkəmə-hüquq islahatlarının keçirilməsi üçün əsaslı zəmin yaranmışdır (1, s.200-202).

Heydər Əliyevin 1994-cü il 9 avqust tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarınının möhkəmləndirilməsi tədbirləri haqqında" fərmanı imzalaması ilə ölkədə qanunun aliliyinin əsas istiqamətlərinin ön plana çəkilməsində müstəsna əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının yaradılması, habelə əfvetmə institunun bərpa edilməsi ulu öndər Heydər Əliyevin necə böyük mənəviyyata sahib olduğunu göstərir. Bu qərarlardan sonra davamlı şəkildə respublikamızda əfv fərmanlarının verilməsi, məhkumların bağışlanması müsbət ənənə halını almışdır. 1995-2003- cü illərdə Heydər Əliyev tərəfindən 32 əfv fərmanı verilmiş, bu fərmanlar nəticəsində 3091 məhkum azadlığa çıxmışdır. Heydər Əliyevin təşəbbüsü nəticəsində Milli Məclis 1996-2003- cü illərdə 8 amnistiya haqqında qanun imzalanmış, bunun nəticəsi olaraq 21 mindən artıq məhkum azadlığa buraxılmış, bəzilərinin isə cəzasının çəkilməyən hissəsi yarıya qədər azaldılmışdır. Qəbul edilən bu qərarlar nəticəsində cəmiyyətə mənəvi dəyərlər, humanizm hissi aşılanması ilə bərabər cinayətkarlığın dinamikasının əsaslı azalmasına gətirib çıxardı. 1998- ci il fevralın 10-da ölüm hökmü tamamilə ləğv edilmiş, Azərbaycan şərqdə bu tarixi qərarı verən ilk ölkə olmuşdur. Şərq dövlətləri arasında ilk dəfə olaraq bu qərarın Azərbaycanda qəbul olunması məhz Heydər Əliyev şəxsiyyətinə xas olan yüksək insanpərvərliyin, humanizmin və insan hüquqlarına olan dərin hörmətin bariz nümunəsi idi. İnsan həyatına mənəvi aləminə yüksək dəyər verən, daim diqqət mərkəzində saxlayan Heydər Əliyev bu barədə deyirdi: "Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir" (11, s.46).

Heydər Əliyevin 15 mart 1996-cı il tarixdə " Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında" fərmanına uyğun olaraq görülən tədbirlər nəticəsində yalnız Azərbaycan Respublikasından repressiyaya məruz qalmış 79852 nəfərin 25524 nəfəri təmizə çıxarılaeraq onlara bəraət verilmişdir (11, s.48).

Heydər Əliyev tərəfindən imzalanmış 1996-cı il 21 fevral tarixli sərəncam ilə yaradılan Hüquq İslahat Komissiyası tərəfindən işlənib hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan əsaslı addımlar olmaqla yanaşı, müstəqil məhkəmə siyasətinin yaradılmasına və fəaliyyətinə imkan yaratmışdır. Ümumiyyətlə bu qanunlarla yanaşı Milli Məclisdə hüquqi islahatlara aid "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında", "Bələdiyyələrə seçkilərin qaydaları haqqında", "Bələdiyyələrin statusu haqqında" və s. qanunlar qəbul olundu.

1998-ci il iyunun 18-də Heydər Əliyevin fərmanı ilə təsdiq olunan "Azərbaycanda insan hüquqların müdafisəinə dair Dövlət Proqramı" çərçivəsində hüquqi islahatlar sahəsində əsaslı addımlar

atıldı. Respublikamızda insan hüquqlarının qorunması istiqamətində ən mühüm əldə olunmuş nailiyyətlərdən biri də 1998-ci ilin avqustunda imzalanan "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur (4, s.5).

Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına "xüsusi qonaq" statusu almış, 2001-ci ilin yanvar ayının 25-də isə onun tamhüquqlu üzvü olmuşdur. Bu təşkilatla səmərəli əməkdaşlıq çərçivəsində milli qanunvericiliyimizin Avropa standartlarına uyğunlaşdırılmasına, davamlı məhkəmə-hüquq islahatlarının aparılmasına əlverişli şərait yaratmışdır (8, s.55).

28 dekabr 2001-ci ildə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında Konstitusiya Qanunu" qəbul edilmişdir. Heydər Əliyevin 2002-ci ilin 5 mart tarixli fərmanı ilə respublikada İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının yaradılmasına start verildi. 2002-ci il avqust ayında Konstitusiyaya edilmiş dəyişikliklərə əsasən hər bir şəxs Konstitusiya Məhkəməsinə müraciət edə bilərdi. Həyata keçirilən islahatlar nəticəsində artıq həmin ildən etibarən Azərbaycanda üçpilləli məhkəmə sistemi formalaşdırıldı. Yeni, yəni ikinci instansiya-apellyasiya məhkəməsi yarandı. Həmçinin əfv sərəncamı ilə "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil (ombudsman) haqqında" Konstitusiya Qanunun 1.7-ci maddəsinə əsasən Ombudsman tərəfindən verilən müraciətlər nəzərə alınmaqla 72 nəfər məhkum əfv olunmuş, daha 14 nəfərin isə cəzasının çəkilməyən hissəsi yarıya endirilmişdir. Ümumilikdə Heydər Əliyevin hakimiyyəti müddəti ərzində qəbul olunmuş amnistiya aktları nəticəsində 80 minə qədər adam cəzadan azad olunmuş, öz ailəsinə və doğma əmək kollektivinə qayıtmışdır (11, s.46-47).

Nəticə. Ulu öndərin ədliyyə sahəsinə göstərdiyi xüsusi diqqətin, o cümlədən ədliyyə işçilərində mənəvi stimul yaradılmasının, ədliyyə sahəsində tarixi irsin qorunmasının məntiqi yekunu olaraq Heydər Əliyev tərəfindən verilmiş 11 noyabr 2000-ci il tarixli sərəncam ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin əsasnaməsinin təsdiq edildiyi gün – 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur (9, s.88).

Heydər Əliyevin bilavasitə şəxsi diqqəti və tövsiyyələri əsasında güc strukturlarının və hüquq-mühafizə orqanlarının maddi-texniki təchizatı xeyli möhkəmləndirildi, kadr bazası əsaslı surətdə yaxşılaşdırıldı. Güc strukturlarından istifadə etməklə hakimiyyətə zorakı qaydalarla, dövlət çevrilişləri yolu ilə gəlmək kimi təhlükəli ənənələrə həmişəlik olaraq son qoyuldu.

Uğurla nəticələnən islahatlar nəticəsində ölkədə 1991-1992-ci illərdə baş verən geriləmələr aradan qaldırılmış, xüsusilə ölkə ərazisində hüquqi sahədə xeyli işlər görülmüşdür. Heydər Əliyevin düzgün uzaqgörənliklə həyata keçirdiyi bu islahatlar, qəbul etdiyi qanun və sərəncamlar ölkədə qanunun aliliyinin ən ümdə məsələ olmasını diqqət mərkəzinə çıxarmışdır. Nəticədə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan məhkəmə-hüquq islahatları, hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti yaradılması sahəsində böyük işlərin əsası qoyuldu (11, s.65-67).

ƏDƏBİYYAT

1. Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. 2-ci cild. Bakı: Oskar MTM, 2008, 343 s.
2. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti.Bakı: Təhsil nəşriyyat, 2002, 322 s.
3. Heydər Əliyev Azərbaycan dövlət quruculuğunun banisidir - mühazirələr toplusu. Bakı: MTM-İnnovation MMC, 2017, 158 s.
4. Məmmədov F. Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi.
5. Qurbanov F. Heydər Əliyev və Azərbaycan Ədliyyəsi. Qanunçuluq, 2009.
6. Heydər Əliyev II cilddə. 1ci cild. Bakı: Turxan NPB, 2013, 500 s.
7. Hacıyev İ. Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi: 2013, 296 s.
8. Heydər Əliyev. Müdrik fikirlər. Birinci kitab. Bakı: Çaşıoğlu, 2008, 399 s
9. Həbibbəyli İ. Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan: Əcəmi, 2013, 272 s.
10. Məmmədov Ş,A. Dövlət və hüquqi təlimlər. Naxçıvan: İdeya, 2013, 288 s.
11. Məmmədov Ş. Heydər Əliyevin dövlətçilik və hüquq təlimi, Bakı, "Elm və təhsil", 2014, 77 s.
12. Yeni Azərbaycan Partiyasının Nizamnaməsi və Proqramı. Bakı: 2006, 48 s.
13. Zahidov B. Heydər Əliyevin hüquq siyasətinin məqamları haqqında / Ümummilli Lider Heydər Əlirza oğlu Əliyevin irsi və milli ideologiyasının formalaşması məsələləri. Bakı: Elm və Təhsil, 2010, 424 s.

14. “Heydər Əliyev. Müstəqilliyimiz əbədidir” 1-ci cild. Bakı-2013. 632 s.
15. Əliyeva S. Heydər Əliyev Azərbaycanda demokratik, hüquqi dövlət modelinin yaradıcısıdır, Xalq qəzeti, 2022, № 178, 2 s.

САБУХИ ГУЛИЕВ
Студент II курса магистратуры по специальности
«Новая и новейшая история Азербайджана»,
Бакинский Государственный Университет

БЕСПРИМЕРНЫЕ ЗАСЛУГИ ВЕЛИКОГО ВОЖДЯ В СФЕРЕ ВЕРХОВЕНСТВА ЗАКОНА

Правление общенационального лидера Гейдара Алиева В этот период (1969-1982, 1993-2003 годы) в республике были проведены масштабные реформы во всех сферах. Принят ряд законов в направлении правового государственного строительства. Принятие Конституции Азербайджанской Республики (12 ноября 1995 года), внесение дополнений и изменений в Конституцию, принятие законов о средствах массовой информации являются ярким тому подтверждением. В результате этих дальновидных реформ верховенство закона стало самым важным вопросом в стране.

Ключевые слова: Конституция, Закон, Муниципалитет, Омбудсмен, Правосудие, Суды.

SABUHI GULIYEV
Master student of the 2nd course of Baku State University,
majoring in “The new and most recent history of Azerbaijan

UNPARALLELED SERVICES OF THE GREAT LEADER IN THE FIELD OF RULE OF LAW

The rule of national leader Heydar Aliyev during this period (1969-1982, 1993-2003), carried out large-scale reforms in all areas of the republic. A number of laws have been adopted in the direction of legal state building. Adoption of the Constitution of the Republic of Azerbaijan (November 12, 1995), making additions and changes to the Constitution, adoption of laws on mass media is a clear confirmation of this. As a result of these visionary reforms, the rule of law has become the most important issue in the country.

Keywords: Constitution, Law, Municipality, Ombudsman, Justice, Courts.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Ədalət Qasımov, t.e.d. İbrahim Zeynalov.